**Fərid Məmmədhəsənov**

**UOT:336.1; JEL; G21; G24.**

# Azərbaycan Respublikası regionlarınnın yerli gəlir və xərcləri

***Xülasə***

*Məqalədə Azərbaycan Respublikasında son beş ildə hər il üçün təsdiq edilən "Büdcə sistemi" haqqında qanunlar əsasında regionlar üzrə yerli gəlir və xərclərin tənzimlənməsi üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsaitin bölgüsünə dair məlumatlar təhlil olunub, qiymətləndirilir. Yerli hakimiyyət orqanlarına tabe olan ərazilərdə iqtisadiyyatın inkişafı, sahibkarlıq təşəbbüslərinin fəallaşması onların bu sahədəki məqsədəyönlü fəaliyyətindən, yerli və xarici investisiyalar cəlb etmək üçün büdcə-vergi stimullaşdırmasından nə dərəcədə istifadə etmələrindən asılıdır. Bu sahədə görülən əhəmiyyətli işlər – yeni müəssisələrin açılması, investorları cəlb edərək infrastrukturun yaradılması və digər fəaliyyət sahələrinin də canlanmasına gətirib çıxarır.*

***Açar sözlər:*** *regionların inkişafı, büdcə səviyyəsi, büdcə münasibətləri, gəlir mənbələri, maliyyə axınları, mərkəzi və yerli büdcələr, yerli gəlir və xərclər*

## Giriş

Büdcə sistemi ölkənin müvafiq dövlət hakimiyyəti və özününidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir. Büdcə vasitəsilə dövlət və bələdiyyə orqanları öz üzərlərinə düşən vəzifə və funksiyaları yerinə yetirir. Belə ki, dövlət büdcə vəsaiti hesabına idarəetmə aparatını və ordunu saxlayır, sosial-mədəni tədbirləri həyata keçirir, iqtisadiyyatı tənzimləyir və inkişaf etdirir. Milli iqtisadiyyatın inkişafında , istehsalın stimullaşdırılmasında , eləcə də cəmiyyətin sosial tərəqqisində dövlət büdcəsi çox böyük rol oynayır. Bu rol özünü daha çox kəmiyyət və keyfiyyət təsirlərində göstərir. Kəmiyyət təsiri hansı istiqamətə nə qədər vəsait xərcləmək lazım gəldiyini bildirir. Keyfiyyət təsiri isə iki aspektdə nəzərdən keçirilir: bir tərəfdən vergilərin düzgün qurulması və vəsaitlərin səmərəli xərclənməsi, digər tərəfdən isə büdcə vasitəsilə nəzarət meyarı kimi götürülür. Bu aspektlərin hər ikisi iqtisadiyyatın keyfiyyətinə təsir göstərir. Bütün ölkələrdə büdcə ən mühüm iqtisadi tənzimləyici kimi çıxış etdiyindən o, makroiqtisadi tənzimləmənin ən önəmli elementlərindən birinə çevrilir.



## Regionların yerli gəlir və xərcləri

Büdcələrarası münasibətlər sisteminin effektiv qurulması büdcə islahatının ən mürəkkəb və siyasiləşdirilən problemlərindən biridir. Regional hakimiyyət orqanlarına onların tabeçiliyində olan ərazidə sosial-iqtisadi məsələlərin həllində maksimal sərbəstlik verməklə unitar dövlətin həm ümumdövlət maraqlarına, həm də yerli özünüidarəetmə orqanlarının maraqlarına cavab verən büdcələrarası münasibətlərin adekvat mexanizminin yaradılmasını tələb edir. 2016-2020-ci illər üçün təsdiq olunmuş "Büdcə sistemi haqqında" Qanun layihələrinə əsasən şəhər və rayonların gəlirləri yerli xərclərin maliyyələşdirilməsini təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanı həmin şəhər və rayonlara, onların xərclərinin faizinden çox olmayan hissəsi qədər dövlət büdcəsinden vəsaitin ayrılması nəzərdə tutulur [1,2].

*©Fərid Məmmədhəsənov Az.DİU fəlsəfə doktoru hazırlığı üzrə doktorant. E-mail:fmammadhasanov@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Cədvəl 1.**

**Yerli gəlirlərin və xərclərin həcmi (mln. manat)** [3]

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|
| **Gəlirlər** | 7102 | 7112 | 7010 | 7645 | 7907 | 7316 | 7190 | 7250 |
| **Xərclər** | 1626,5 | 1651 | 1538,3 | 721,2 | 723,9 | 842,8 | 814,9 | 859,6 |
| **Fərq** | 5475,5 | 5461 | 5471,7 | 6923,8 | 7183,1 | 6473,2 | 6375,1 | 6390,4 |

Cədvəl 1-dən göründüyü kimi 2014-2021-ci illərdə yerli gəlir və xərclərin həcmində ciddi artım və ya dəyişiklik qeydə alınmayıb. Yerli gəlirlərin ən yüksək məbləği 790,7 mln. manat 2018-ci ildə, ən aşağı məbləği isə 701 mln. manat 2016-cı ildə; yerli xərclərin ən yüksək məbləği 1651 mln. manat 2015-ci ildə, ən aşağı məbləği isə 721,2 mln. manat 2017-cı ildə olub. Bütütövlükdə respublika üzrə 2014-2021-ci illərdə yerli gəlirlər cəmi 2,1% artıb, yerli xərclər isə əksinə, 2017-ci ildən başlayaraq azalmaqla 2021-ci ildə 52,8% təşkil edib.




Bakı şəhəri xərclərini 2012-ci ilə kimi yalnız öz daxili gəlirləri hesabına təmin edə bilirdi. Bu siyahıya daha sonra Sumqayıt şəhəri və Abşeron rayonu daxil olmuş, 2014 və 2015-ci ildə büdcədən dotasiya almayan şəhər və rayonların siyahısına Şirvan, Mingəçevir şəhərləri və İmişli rayonu, 2016-cı ildə isə Naftalan şəhəri əlavə edimişdir.




Azərbaycan Respublikasının 2017 və 2018-ci illər üçün dövlət büdcəsində dotasiya almayan şəhər və rayonların sayı kəskin surətdə artırılaraq 34-ə (cəmi 65 rayondan) çatdırılmışdı. 2018-ci ilin büdcəsində həmçinin əvvəlki illərdən fərqli olaraq dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən ayrılan maliyyə yardımının (dotasiyanın) məbləği də nəzərəgarpacaq dərəcədə azaldılmışdır. Bu rayonlardan bəziləri bütün xərclərini öz



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

gəlirləri hesabına ödəməklə yanaşı artıq qalmış vəsaitlərini mərkəzi büdcəyə köçürüblər. 2018-ci ildə mərkəzi büdcədən ən çox pul alan rayon Ağdam - 5,3 milyon manat; Gədəbəy və Qax (4,1 milyon manat); Laçın (3,8 milyon manat) rayonları olub. 2019-cu ildə isə xərclərini öz gəlirləri hesabına təmin edən rayon və şəhərlərin sırasına Şamaxı rayonu (cəmi 35), 2020-ci ildə Salyan, Siyəzən, Şabran, Şəmkir və Tovuz rayonları (cəmi 40), 2021-ci il üçün isə Xızı və Samux rayonları da (cəmi 44) əlavə edilib. Bütün bu müsbət meyllərə baxmayaraq, fikrimizcə, hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsinin hesabına formalaşdırılması prinsipinə əməl edilməklə yanaşı yerli xərcləri gəlirlərini üstələyən regionlar üzrə adambaşına düşən gəlirlərin aşagı həddini də nəzərə almaq lazımdır.

**Dövlət büdcəsi vasitəsilə regioların şəhər və rayonlarının büdcə tənzimlənməsi**

Ölkəmizin şəhər və rayonlarının gəlir və xərclərinin tarazlaşdırılmasına yönəldilən büdcə vəsaitlərinin həcmi cədvəl 2-də göstərilmişdir ki, bu da yuxarıda deyilən fikirləri əyani olaraq təsdiqləyir.

**Cədvəl 2.**

**Ölkənin dövlət büdcəsində şəhər və regionların büdcə sistemi (2020, min manat)** [4]

| | Gəlirlər | | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ | | | |
| **Azərbaycan Respublikası** | 6577 | 41 | 7915 | 0 | 1379 |
| **Bakı** | 6407,5 | 84,7 | 335,7 | 5987,2 | 0,0 |
| **Abşeron-Xızı** | 184,1 | 1,8 | 67,1 | 115,3 | 0,0 |
| **Dağlıq Şirvan** | 149,2 | 2,3 | 62,4 | 84,5 | 0,0 |
| **Gəncə-Daşkəsən** | 112,6 | 2,8 | 73,1 | 39,9 | 3,2 |
| **Qarabağ** | 85,5 | 3,9 | 59,1 | 32,8 | 10,3 |
| **Qazax-Tovuz** | 52,0 | 1,3 | 35,8 | 17,5 | 2,6 |
| **Quba-Xaçmaz** | 96,2 | 4,2 | 45,2 | 46,8 | 0,0 |
| **Lənkəran-Astara** | 112,0 | 3,5 | 58,2 | 52,7 | 2,5 |
| **Mərkəzi Aran** | 78,0 | 1,8 | 57,8 | 21,2 | 2,8 |
| **Mil-Muğan** | 6454,7 | 85,7 | 356,1 | 6012,9 | 0,0 |
| **Şəki-Zaqatala** | 71,8 | 3,4 | 51,5 | 26,1 | 9,2 |
| **Şərqi Zəngəzur** | 13,5 | 0,1 | 28,0 | 0,0 | 0,0 |
| **Şirvan-Salyan** | 109,7 | 4,1 | 56,7 | 48,8 | 0,0 |

2020-ci il üçün təsdiq olunmuş büdcə layihəsinə görə şəhər və rayonları üzrə gəlirlər 6577 mln. manat, o cümlədən yerli xərclər 7915 mln. manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 41,0 mln. manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 1379,0 mln. manat məbləğində nəzərdə tutulmuşdur. Qanunun 10-cu maddəsi ilə müəyyən edilmiş yerli xərclərin maliyyələşdirilməsi məqsədi ilə şəhər və rayonların gəlirləri, həmçinin yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsaitin yuxarı həddi yerli xərcləri təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanı həmin şəhər və rayonlara, onların xərclərinin 10 faizindən çox olmayan hissəsi qədər dövlət budcəsindən vəsait ayırır. Cədvəl 2 və 3-dən göründüyü kimi Azərbaycan Respublikası gəlirlərinin 46,25%-i, xərclərin isə 27, 18%-i Bakı şəhərinin payına düşür. Mil-Muğan iqtisadi rayonu ikinci yerdə olmaqla gəlirlərin 46,59%-ə və xərclərin isə 28,83%-ə; Abşeron-Xızı iqtisadi rayonu müvafiq olaraq 1,33 və 5,43%; Dagliq-Şirvan 1,08 və 5,05%; Gəncə-Daşkəsən 0,81 və 5,92%; Lənkəran-Astara 0,81 və 4,72%; Şirvan-Səlyan 0,79 və 4,59%; Quba-Xaçmaz 0,69 və 3,66%; Qarabağ 0,62 və 4,78%; Mərkəzi Aran 0,56 və 4,68%; Qazax-Tovuz 0,38 və 2,90%; Şərqi Zəngəzur 0,10 və

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

2,26% olması ilə diqqəti cəlb edir. 2020-ci il ərzində 25 rayon üzrə yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən 50,3 mln. manat vəsait ayrılması proqnozlaşdırılsa da, yerli gəlirlərin yüksək, yerli xərclərin isə nisbətən aşağı səviyyədə icrası həmin vəsaitin 23 rayon üzrə 28,3 mln. manat az və ya 56,3% az icra edilməsi ilə nəticələnmişdir.

**Cədvəl 3.**

**Dövlət büdcəsində şəhər və regionların payı (2020, %)** [4, 5,6]

| | Gəlirlər | | Yerli xərclər |
|---|---|---|---|
| | Cəmi | o cümlədən Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ | |
| **Azərbaycan Respublikası** | 100 | 100 | 100 |
| **Bakı** | 46,25 | 43,17 | 27,18 |
| **Abşeron-Xızı** | 1,33 | 0,91 | 5,43 |
| **Dağlıq Şirvan** | 1,08 | 1,15 | 5,05 |
| **Gəncə-Daşkəsən** | 0,81 | 1,41 | 5,92 |
| **Qarabağ** | 0,62 | 1,99 | 4,78 |
| **Qazax-Tovuz** | 0,38 | 0,65 | 2,90 |
| **Quba-Xaçmaz** | 0,69 | 2,15 | 3,66 |
| **Lənkəran-Astara** | 0,81 | 1,78 | 4,72 |
| **Mərkəzi Aran** | 0,56 | 0,91 | 4,68 |
| **Mil-Muğan** | 46,59 | 43,71 | 28,83 |
| **Şərqi Zəngəzur** | 0,10 | 0,07 | 2,26 |
| **Şirvan-Salyan** | 0,79 | 2,10 | 4,59 |

Ölkədə 2020-ci ildə mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 2019-cu ilin icra göstəricisindən 45,3 mln. manat və ya 61,5% aşağı icra olunmuşdur. Belə ki, il ərzində 8 rayon üzrə yerli gəlirlərin yerli xərclərdən artıq icra edilməsinə baxmayaraq, mərkəzləşdirilmiş xərclərdən 15 rayon üzrə isə yerli gəlir və yerli xərclər arasındakı fərqdən (kəsir) artıq vəsait ayrılmışdır. 2020-ci ildə respublikanın 42 rayon və şəhəri dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyə yardımı almadan xərclərini öz gəlirləri hesabına maliyyələşdirmişdir (Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Yevlax, Mingəçevir, Şirvan, Naftalan şəhərləri, Abşeron, Ağcabədi, Ağstafa, Ağsu, Astara, Beyləqan, Bərdə, Biləsuvar, Cəlilabad, Daşkəsən, Göyçay, Göygöl, Hacıqabul, Xaçmaz, İmişli, İsmayıllı, Kürdəmir, Qazax, Qəbələ, Qobustan, Quba, Qubadlı, Qusar, Masallı, Neftçala, Saatlı, Sabirabad, Salyan, Siyəzən, Şabran, Şamaxı, Şəmkir və Tovuz).

Müvafiq dövrdə ildə yerli vergi və digər tədiyə növlərinə görə: əlavə dəyər vergisi - 250,8 mln. manat; fiziki şəxslərdən gəlir vergisi - 220,4 mln. manat; hüquqi şəxslərin mənfəət (gəlir) vergisi -167,6 mln. manat; sadələşdirilmiş vergi - 40,6 mln. manat; cərimə və sanksiyalardan daxilolmalar -13,7 mln. manat; aksizlər - 52,9 mln. manat; dövlət rüsumu - 24,1 mln. manat; hüquqi şəxslərin əmlak vergisi - 25,5 mln. manat; hüquqi şəxslərin torpaq vergisi - 8,2 mln. manat; xarici iqtisadi fəaliyyətlə bağlı vergilər - 7,4 mln. manat; mədən vergisi - 7,5 mln. manat; dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən icarə haqqı - 2,3 mln. manat; dövlət əmlakının satışından - 0,4 mln. manat vəsait daxil olmuşdur. Həmin ildə yerli gəlirlərdən daxilolmaların artmasına baxmayaraq, yerli xərclərin həm ümumilikdə, həm də ayrı-ayrı şəhər və rayonlar üzrə icra səviyyəsi aşağı düşmüş, bu isə yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən nəzərdə tutulduğundan daha az vəsait ayrılmasına səbəb olmuşdur. Şəhər və rayonların yerli xərcləri ümumilikdə nəzərdə tutulduğundan 111,5 mln. manat az və ya 86,3% icra olunaraq 703,4 mln. manat: o cümlədən Bakı şəhəri üzrə 30,6 manat az və ya 90,6% icra olunaraq 293,8 mln. manat təşkil etmişdir. Şəhərlər üzrə yerli xərclər proqnozdan 49,3 mln. manat az və ya 89,4% icra olunaraq 414 mln.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

manat: o cümlədən 3 şəhər üzrə icra səviyyəsi qeyd olunan göstəricidən yüksək, 6 şəhər üzrə isə az olmuşdur. Şəhərlər üzrə ən yüksək icra səviyyəsi Bakı şəhərində (90,6%), ən aşağı icra səviyyəsi isə Şəki şəhərində (80,1%) olmuşdur. Rayonlar üzrə yerli xərclər nəzərdə tutulduğundan 62,2 mln. manat az və ya 82,3% icra olunaraq 289,4 mln. manat: o cümlədən 32 rayon üzrə icra səviyyəsi rayonlar üçün orta icra səviyyəsindən yüksək, 24 rayon üzrə isə aşağı olmuşdur. Ən aşağı icra səviyyəsi Xızı rayonuna (61,3%), ən yüksək icra səviyyəsi isə Gədəbəy (94,7%) rayonuna məxsus olmuşdur.

**Cədvəl 4.**

**İqtisadi regionlar üzrə yerli gəlir və xərclərin mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait üzrə bölgüsü (2020, min manat)** [7]

| | Yerli gəlirlər | Yerli xərclər | Yerli gəlir və xərclər arasında fərq |
|---|---|---|---|
| **Azərbaycan Respublikası** | 80623 | 85765 | -5142 |
| **Bakı şəhəri** | - | - | - |
| **Abşeron-Xızı** | 2784 | 1798 | 986 |
| **Dağlıq Şirvan** | 3788 | 3499 | 289 |
| **Gəncə-Daşkəsən** | 11872 | 10861 | 1011 |
| **Qazax-Tovuz** | 13758 | 12449 | 1309 |
| **Quba-Xaçmaz** | - | - | - |
| **Lənkəran-Astara** | 2523 | 4071 | -1548 |
| **Mərkəzi Aran** | 16423 | 15454 | 969 |
| **Mil-Muğan** | - | - | - |
| **Şəki-Zaqatala** | 21104 | 24597 | -3493 |
| **Şərqi Zəngəzur** | 8371 | 13036 | -4665 |
| **Şirvan-Salyan İR** | - | - | - |



Cədvəl 4-də 2020-ci ildə İqtisadi regionlar üzrə yerli gəlir və xərclərin tənzimlənməsi üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsaitin bölgüsünə dair məlumatlar göstərir ki, bütövlükdə ölkə üzrə yerli gəlirlər yerli xərclərdən aşağı olsa da, Abşeron-Xızı (986 min manat); Dağlıq Şirvan (289 min manat); Gəncə-Daşkəsən (1011 min manat); Qazax-Tovuz (1309 min manat) və Mərkəzi Aran (969) iqtisadi rayonlarında bu fərq müsbət olmuşdur. Əksinə, Lənkəran-Astara (-1548); Şəki-Zaqatala (-3493); Şərqi Zəngəzur (-4665) regionunda həmin fərq mənfi olmuşdur. Son illərin mərkəzi büdcədən yerli və bələdiyyə büdcələrinə ayrılan dotasiyaların təhlili göstərir ki, region büdcələrinin mərkəzi büdcədə payı eyni olmadığı kimi onların gəlir mənbələrinə görə göstəriciləri də fərqlidir. Regionların inkişafına dair dövlət proqramlarının xeyli uğurlu nəticələrinə baxmayaraq, ölkənin məcmu büdcə daxilolmalarında regionların payı yenə 5-6%-dən yuxarı qalxmır. İstənilən halda, regionların büdcəyə ödədikləri və büdcədən aldıqlarını müqayisə etdikdə, regionların büdcə qarşısında öhdəliklərinin artırılması zərurəti daha qabarıq görünür. Yerli büdcələrin gəlir bazasının möhkəmləndirilməsi məqsədilə mülkiyyət vergilərinin hesablanması və ödənilməsi mexanizminə yenidən baxmaq lazımdır. Təhlil göstərir ki, onların yerli büdcə gəlirlərində xüsusi çəkisi çox azdır. Ona görə də imkan daxilində güzəştləri azaltmaq, dərəcələri artırmaq lazımdır. Bu sahədə kifayət qədər potensial mövcuddur. Regionlar üzrə məlumatların təhlili göstərir ki, vergi növləri üzrə dövlət büdcəsinə olan borcun və artıq ödəmə məbləğinin əsas hissəsi real sektorun qeyri-neft mənbələri hesabına yaranmışdır. Fikrimizcə, regionlarda investisiya mühiti yaxşılaşdırılmaqla, bölgəyə daha çox kapital cəlb edilməsinə şərait yaradılmalı, regionların xərclərinin əksər hissəsi daxili mənbələr hesabına qarşılanmalıdır. İndiki şəraitdə rayonların əksəriyyətinə büdcədən dotasiya ayrılması məqsədəuyğun sayılmasa da, bütövlükdə dotasiyaların ləğvi məsələsinə də ehtiyatla yanaşılmalı, görülən tədbirlər mərhələli aparılmalıdır. Təbii ki, burada işğaldan azad olunmuş rayonlara, sərhəd, anklav (Naxçıvan MR kimi) və problemli regionlara müəyyən istisnalar və güzəştlər edilməlidir. Hazırda Regionların inkişafına dair dövlət proqramlarında (hazırkl proqramdır) nəzərdə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

tutulan tədbirlərin icrası məhz bu məqsədlərin reallaşmasına yönəldilib. Ən vacibi - regionlara investisiyaların cəlb edilməsi üçün sahibkarlığın inkişaf etdirilməsinə hər cür şərait yaradılmalı, yerli özünüidarəetmə qurumları bu sahədəki fəaliyyətlərini daha gücləndirilməlidir. Hazırda bəzi regionlarin gəlirlərinə aid olmayan, xüsusən ərazi aidiyyəti üzrə müvafiq vergi orqanında qeydiyyatda olmayan, həmçinin burada fəaliyyət göstərməyən vergi ödəyicilərinin yerli gəlir kimi ödəniş etmələri hallarına rast gəlinir. Bu daha çox Bakı şəhərində fəaliyyət göstərən firma və şirkətlərə aiddir və bunu hesablama Palatasının apardığı audit yoxlamalarının nəticələri də təsdiq edir. Hal-hazırda konsepsiyaların, proqramların dəyişməsinə, büdcə qanunvericiliyinin təkmilləşdirilməsinə baxmayaraq, hakimiyyət səviyyələrinin qarşılıqlı fəaliyyət modeli büdcə liberalizminin əsas prinsiplərinə hələ də cavab vermir. Büdcələrarası münasibətlərin natamamlığının aydın təzahürləri regionların sosial-iqtisadi inkişafın səviyyəsinə görə həddən artıq fərqlənməsi və özünü doğrultmayan büdcə asimmetriyasıdır. Sosial-iqtisadi göstəricilərin aşağı dinamikasına və əhalinin nisbətən aşağı gəlir səviyyəsinə malik, yüksək dotasiyalı regionların mövcudluğu müasir həqiqətin reallığıdır.

**Nəticə**

Büdcələrin sərbəstliyi, gəlir və xərclərin bölünməsi kimi büdcə sistemi prinsiplərinin kifayət qədər reallaşdırılmaması büdcə sisteminin potensial olaraq balanslaşdırılmamasına, şaquli maliyyə balansının tarazlığının pozulmasının gücləndirilməsinə gətirib çıxarır. Büdcə sisteminin üfüqi balansı, ölkənin müxtəlif regionlarında büdcələrin vəsaitlərinin formalaşması və xərclənməsi proseslərini müəyyən edən regional nisbətsizlikləri aradan qaldırmağa yönəlmişdir. Üfüqi balansın əldə edilməsi isə regional tarazlaşdırma metodları vasitəsi ilə təmin olunur, ki, bu metodlar həmin regional nisbətsizlikləri müəyyən edən amilləri və şərtləri nəzərə almağa imkan verir. Hər iki məsələ mürəkkəb, çox planlı xarakter daşıyır. Məlum olduğu kimi, heç bir ölkədə, büdcə sisteminin şaquli və üfüqi balansını təmin edən optimal mexanizm işlənib hazırlanmamışdır, həmçinin də büdcələrarası tənzimləmənin ideal modeli də mövcud deyildir.



**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında. https://sai.gov.az/files/Rey_2021_final.pdf
2. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında. https://president.az/articles/49859
3. https://economy.gov.az/uploads/fm/files/DP/Regionlar0iqtisadiB1.pdf
4. https://azerbaijan-news.az/view-175978/azerbaycan-respublikasinin-2020-ci-il-dovlet-budcesi-haqqinda
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 16 noyabr 2021Qanun Layihəsi https://meclis.gov.az/news-layihe.php?id=1593&lang=az&par=0;
6. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında. https://sai.gov.az/files/Rey_2021_final.pdf
7. https://azerbaijan-news.az/view-175978/azerbaycan-respublikasinin-2020-ci-il-dovlet-budcesi-haqqinda


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Фарид Мамедхасанов***
***Местные доходы и расходы регионов Азербайджанской Республики***
***Резюме***

*В статье проанализированы и оценены данные о распределении средств, выделяемых на централизованные расходы для регулирования местных доходов и расходов по регионам на основании утвержденных за последние пять лет законов О “бюджетной системе” на каждый год. Развитие экономики на территориях, подведомственных местным органам власти, активизация предпринимательских инициатив зависят от их целенаправленной деятельности в данной сфере, от того, в какой мере они используют бюджетно-налоговое стимулирование для привлечения местных и иностранных инвестиций. Значительная работа, проводимая в этой сфере, – открытие новых предприятий, создание инфраструктуры с привлечением инвесторов-приводит к оживлению и других сфер деятельности.*
***Ключевые слова***: *развитие регионов, уровень бюджетов, бюджетные отношения, источники доходов, финансовые потоки, Центральный и местные бюджеты, местные доходы и расходы*

***Farid Mammadhasanov***
***Local income and expenses of regions of the Republic of Azerbaijan***
***Summary***

*The article analyzes and evaluates the data on the distribution of funds allocated from centralized expenses for regulation of local income and expenses by Regions based on the laws on the “budget system” approved annually in the last five years in the Republic of Azerbaijan. The development of the economy in the territories subordinate to local authorities, the activation of entrepreneurial initiatives depend on their purposeful activities in this area, on how much they use budget-tax incentives to attract local and foreign investments. Significant work carried out in this area – the opening of new enterprises, the creation of infrastructure by attracting investors and other areas of activity-leads to revival.*
***Keywords:*** *development of regions, budget level, budget relations, sources of income, financial flows, central and local budgets, local income and expenses*

***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 03.08.2021.***
***Çapa qəbul olunub: 10.08.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*